UOT 338.43; 336.77

*Nizami Cəlal oğlu QAFAROV*
*Azərbaycan Kooperasiya Universiteti, dosent,*

*Mirvan Vüqar oğlu MƏMMƏDOV*

# AQRAR SAHƏDƏ KİÇİK VƏ ORTA BİZNESİN KREDİT MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** aqrar sahədə, kiçik və orta biznesin inkişafında kredit mexanizminin rolu və onun nəzəri əsaslarını araşdırmaqdan, kredit mexanizminin mövcud vəziyyəti və inkişaf təmayüllərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası -** tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşmə, sistemli yanaşma və analiz metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** aqrar sahədə kiçik və orta biznes fəaliyyətində iqtisadi münasibətlərin tənzimlənməsi ilə əlaqədar iqtisadi mexanizmlərin təkmilləşdirilməsi, iqtisadiyyatın idarə edilməsi və bunların bazar münasibətlərinin tələblərinə uyğunlaşdırılması əsas vəzifələrdən biri kimi göstərilir.

**Tədqiqatın nəticələri -** kəndli təsərrüfatlarını kreditləşdirən banklar üçün güzəştli vergilərin müəyyən edilməsi, kəndli təsərrüfatlarının kreditləşdirilməsində iştirak edən bankların dövlət tərəfindən subsidiyalaşdırılması sisteminin tətbiqi, kəndli təsərrüfatları üçün bazar iqtisadiyyatının tələblərinə müvafiq sığorta mexanizminin tətbiqi, kəndli təsərrüfatları üçün ehtiyat (sığorta) fondlarının yaradılması, respublkanın iqtisadi regionlarında kredit kooperativlərinin yaradılması və kəndli təsərrüfatlarının mövcud maliyyə vəziyyətinin sağlamlaşdırılmasına dair tövsiyələr verilir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** kənd təsərrüfatında fəaliyyət göstərən kiçik və orta biznes qurumlarının səmərəli fəaliyyətlərini təmin etmək məqsədi ilə kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri göstərilmişdir.

***Açar sözlər: aqrar sahə, kiçik və orta biznes, istehsal, iqtisadi mexanizm, maliyyə, kredit, bank, bazar münasibətləri, əmtəə-pul münasibətləri.***

## *Giriş*

Kiçik və orta biznes fəaliyyətinin iqtisadi mexanizmini təkmilləşdirmədən onun iqtisadi səmərəliliyini yüksəltmək və son nəticədə isə aqrar sahənin əsasına çevirmək mümkün deyil. Ona görə də, aqrar sahədə fəaliyyət göstərən kiçik və orta biznes strukturlarının iqtisadi mexanizminin təkmilləşdirilməsinin böyük və zəruri əhəmiyyəti vardır. [9, s. 75]

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, makroiqtisadiyyatın, eləcə də kənd təsərrüfatı istehsalının müvəffəqiyyətli inkişafı, həmçinin kənd təsərrüfatı əmtəə istehsalçıları ilə istər dövlətin və istərsə də emal müəssisələrinin qarşılıqlı münasibətlərində paritetliyin təyin edilməsi düzgün qurulmuş və elmi cəhətdən əsaslandırılmış maliyyə sisteminə söykənir. Nəticə etibarı ilə bunlar əmtəə-pul münasibətlərində istehsal strukturlarının iqtisadi mənafelərinin gözlənilməsinə səbəb olmaqla yanaşı həm də onların emal, maddi-texniki təchizat və tədarük strukturlarının inhisarçılıq təsirlərindən xilas olmasına gətirib çıxarır. Düzgün qurulmuş maliyyə mexanizmi kənd təsərrüfatı əmtəə istehsalçılarının geniş təkrar istehsal prosesinin müvəffəqiyyətlə başa çatmasına və bütövlükdə təsərrüfat-maliyyə subyektləri arasında ödəniş intizamına əməl olunmasına xidmət edir. Bu isə öz növbəsində istehsalçıların mənfəətlərinin tam həcmdə formalaşmasına, aqrar-sənaye kompleksində kapitalın sürətli dövriyyəsinə və istehsal strukturlarının təsərrüfat-maliyyə fəaliyyətinin ziyanla başa gəlməsinin qarşısının alınmasına səbəb olur.

**Məhsul istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılması istiqamətləri**

İqtisadiyyatın durumu əhəmiyyətli dərəcədə pul-kredit sferasının vəziyyətindən asılıdır. İnstitutların sayına, kredit resursları və əməliyyatlarının həcminə görə bütün pul-kredit sisteminin bazasını kommesiya bankları və digər kredit təşkilatları təşkil edir. Pul-kredit tənzimlənməsi – dövlətin iqtisadi siyasətinin tərkib hissəsidir. Pul-kredit tənzimlənməsi dövriyyədə pul kütləsinin, kredit həcminin, faiz dərəcələrinin və pul dövranı və kreditin digər göstəricilərinin dəyişməsinə yönəlmiş tədbirlər toplumudur.

İqtisadi islahatların həyata keçirilməsi ilə əlaqədar maliyyə, kredit, vergi, qiymət və s. kimi iqtisadi mexanizmin təkmilləşdirilməsi, iqtisadiyyatın idarə edilməsi və bunların bazar münasibətlərinin tələblərinə uyğunlaşdırılması əsas vəzifələrdən biri kimi qarşıda durur. İqtisadi münasibətlərin mühüm tərkib hissəsi kimi maliyyə münasibətlərinin təkmilləşdirilməsi obyektiv zərurətə çevrilmişdir. Maliyyə sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri inflyasiyanın qarşısını almaq, milli valyutanın alıcılıq qabiliyyətini sabitləşdirmək, istehsalın aşağı düşməsi meylini dayandırmaq və xarici ticarət balansında müsbət saldoya nail olmaqdan ibarətdir. Ona görə də iqtisadi transformasiyanın zəruri ilkin şərti kimi maliyyə islahatı büdcə, valyuta, vergi, qiymət, investisiya və gömrük islahatı ilə əlaqəli həyata keçirilməlidir. Ölkələrin milli və beynəlxalq səviyyədə həyata keçirdikləri inkişaf planları həmin ölkələr üçün faydalı olmalı, mövcud problemlərin həlli üçün yetərli təsirə malik mexanizmlərlə icra edilməlidir.

Maliyyə iqtisadi islahatların həyata keçirilməsində mühüm əhəmiyyətə malikdir.Odur ki, ölkədə aparılan islahatlar bazar təsərrüfatçılıq sisteminin yaradılması, aqrar sektorda çoxukladlılığın formalaşması ilə bağlı həyata keçirilən tədbirlərə baxmayaraq iqtisadi problemlər öz həllini hələ də tam tapmamışdır. Ölkələrin milli və beynəlxalq səviyyədə həyata keçirdikləri inkişaf planları həmin ölkələr üçün faydalı olmalı, mövcud problemlərin həlli üçün yetərli təsirə malik mexanizmlərlə icra edilməlidir. [3, s. 407]

Tədqiqatlar göstərir ki, aqrar sektorda həyata keçirilən islahatlar nəticə etibarı ilə müxtəlif təsərrüfatçılıq formalarının yaradılması ilə müşayiət edilsə də, aqrar islahatın maliyyə təminatının olmaması bütövlükdə makroiqtisadiyyatda pul azlığının reallığa çevrilməsi, kəndlilərə verilən əmlakdan və torpaq payından tam istifadə edilməməsinə gətirib çıxarmışdır. Eyni zamanda, kənd təsərrüfatı əmtəə istehsalçıları ilə istər emal və tədarük müəssisələri, istərsə də dövlət arasındakı iqtisadi münasibətlərin maliyyə mexanizminin təkmilləşdirilməməsi əksər kəndli təsərrüfatlarının istehsal-maliyyə fəaliyyətinin zərərlə başa çatmasına səbəb olur.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılması və kifayət qədər kredit ehtiyatlarının yaradılması üçün büdcə boşluqlarının doldurulması sahəsində respublika hökumətinin qəbul etdiyi qanunlar və normativ aktlar hələlik səmərəli qiymət, maliyyə, investisiya siyasəti yeridə, bank maliyyə orqanları ilə istehsalçılar arasında tam etibarlı işgüzar münasibətlər yarada bilməmişdir.

Digər tərəfdən bank, maliyyə orqanlarının ölkədə davam etməkdə olan inflyasiyanı neytrallaşdırmaq, bazar iqtisadiyyatının tələblərinə müvafiq yeni istehsal qurumları yaratmaq, məhsul istehsalını sabitləşdirmək və kreditin səmərəliliyini yüksəltmək sahəsində yeritdikləri bahalı kredit siyasəti ölkə iqtisadiyyatının inkişafı istiqamətində yaranmış problemləri tam aradan qaldıra bilməmişdir. Real vəziyyət sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsini, kəndli təsərrüfatlarının parametrlərinin məqsədyönlü ölçülərə çatdırılması üçün dövlət tərəfindən kifayət qədər maliyyə ehtiyatlarının yaradılmasını, bu məqsədlər üçün kredit sistemindən geniş istifadə olunmasını, xarici və daxili investorların investisiyalarının aqrar bölmənin inkişafına istiqamətləndirilməsi zəruriyyətini diqtə edir.

Kənd təsərrüfatında kredit münasibətlərinin inkişaf etdirilməsi zəruriyyəti əsasən məhsul istehsalı ilə onun satışı müddətlərinin bir-birinə uyğun gəlməməsi ilə əlaqədardır. Digər tərəfdən, son illərdə kənd təsərrüfatı məhsulları istehsalına çəkilən xərclərin artması, maliyyə ehtiyatlarının çatışmaması, kredit üçün ödəniş faizinin xeyli yüksək olması nəticəsində gübrə, zəhərli kimyəvi maddələrin tətbiqinin minimuma enməsi vahid sahədən məhsul çıxımı, bu isə öz növbəsində əksər

sahələr üzrə məhsul istehsalına çəkilən xərclərin onun satışından daxil olan vəsaiti üstələməsi ilə nəticələnmişdir.

Apardığımız tədqiqat araşdırmaları belə bir qənaətə gəlməyə əsas verir ki, aqrar bölmədə islahatların aparılmasında başlıca məqsəd aqrar sahənin inkişafının təmin edilməsi, daxili bazarın kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatının ödənilməsi olmuşdur. Torpaqların kənd əhalisinin sərbəst istifadəsinə verilməsinə baxmayaraq torpaqdan səmərəli istifadə olunması problemi öz tam həllini tapmamış, əksinə, torpaqların bir qisminin əkin dövriyyəsindən çıxması və istifadəsiz qalması ilə nəticələnmişdir. Bu onunla izah olunur ki, mülkiyyətinə torpaq sahəsi götürmüş kəndlinin maliyyə imkanlarının məhdud olması yeni təsərrüfatçılıq formalarının yaranmasında ciddi çətinliklər yaradır. Respublikada yeni təsərrüfat formalarının yaranmasında kəndlilərə maliyyə yardımı göstərilməsi və ya kredit verilməsi üçün investisiyaların cəlb edilməsinə böyük ehtiyac vardır. Mövcud obyektiv çətinliklərlə əlaqədar dövlətin real vəziyyəti nəzərə almaqla rayonlarda irihəcmli yeni təsərrüfat formalarının yaradılması və onların maliyyə imkanları baxımından qiymətləndirilərək müəyyənləşdirilməsi, yeni təsərrüfatçılıq formalarında dövlət dəstəyinin genişləndirilməsi istiqmətində layihələr həyata keçirilməkdədir. Ancaq hal-hazırda aqroparkların yaradılması istiqamətində işlərin görülməsinə baxmayaraq aqrar sahənin inkişafı üçün tələb olunan tədbirlərin icra olunması daimi diqqətdə olmalıdır.

Yeni istehsal münasibətlərində müvafiq əmtəə-pul münasibətləri təşəkkül tapdıqca sərbəst məhsul istehsalçıları ilə büdcə, bank və digər maliyyə orqanları arasında yeni iqtisadi münasibətlər formalaşır, maliyyə, kredit və investisiya qoyuluşunun əhəmiyyəti və bunların istehsalın son nəticələrinə təsiri artır. Güclü maşın - traktor parkına, kapital qoyuluşu üçün kifayət qədər sərbəst pul vəsaitinə malik olmayan kəndli təsərrüfatlarının səmərəli fəaliyyəti üçün böyük həcmdə investisiya və kredit tələb olunur. Çünki, kəndli təsərrüfatları obyektiv çətinliklər üzündən vahid sahədən mümkün ola bilən səviyyədən xeyli az məhsul əldə edir. Sərbəst qiymətlərlə reallaşdırılan bu məhsulların satışından əldə olunan vəsait əksər hallarda istehsal xərclərini belə ödəmir. Sayca azlıq təşkil edən iri kəndli təsərrüfatlarının təsərrüfat fəaliyyətindən əldə etdikləri gəlirlərdən istehsalın inkişafına və genişləndirilməsinə ayırdıqları vəsait bu təsərrüfatların qarşısında duran məqsədlərə çatması üçün kifayət etmir.

Odur ki, hazırkı mərhələdə kənd təsərrüfatı istehsalını kreditsiz təsəvvür etmək çətindir. Kredit, kənd təsərrüfatı məhsulları istehsalı və satışının bütün mərhələlərini əhatə etməli, istehsal həcminin sabitləşdirilməsi, kiçik və orta biznes təsərrüfatlarının maliyyə vəziyyətinin sağlamlaşdırılmasına şərait yaratmalıdır.

Aqrar sahənin maliyyə-kredit tənzimlənməsinin müasir mərhələsində sahənin tələbatını ödəmək məqsədi ilə xüsusi maliyyə-kredit müəssisələrinin yaradılması məqsədəuyğun olardı. [4, s. 418].

Kənd təsərrüfatının kreditə olan tələbatının ödənilməsi üçün dövlət tərəfindən kifayət qədər kredit ehtiyatlarının yaradılması, kredit ehtiyatlarından istifadənin bazar münasibətləri prinsiplərinə uyğun səmərəli forma və metodlarının seçilməsi günün vacib problemi kimi durur. Ölkədə kifayət qədər kredit ehtiyatlarının yaradılmasına mənfi təsir edən əsas amillərə istehsalın qeyri-stabilliyi və aşağı səviyyədə olmasını, əhalinin sərbəst pul ehtiyatlarının depozitə yerləşdirilməsi üçün kredit müəssisələri tərəfindən səfərbəredici tədbirlərin görülməməsini və s. aid etmək olar.

Kəndli təsərrüfatlarında kiçik və orta biznes sahələrinin yaradılması və onların səmərəli fəaliyyətinin təmin edilməsi təsərrüfatların ölçülərinin sahibkarların məqsədləri baxımından tələb olunan səviyyəyə çatdırılmasını, bütövlükdə aqrar-sənaye kompleksində əsaslı struktur dəyişikliklərin aparılmasını, maddi-texniki təchizatın, iş və xidmətlərin daha səmərəli formalarının tətbiq edilməsini tələb edir. Bütün bunlar isə dövlətin çevik vergi mexanizminin, əlverişli maliyyə-kredit, sığorta mexanizminin formalaşdırılmasını, məqsədli dövlət subsidiyalaşdırılmasını, aqrar bölməyə böyük həcmdə investisiya qoyuluşları proqramlarının hazırlanıb həyata keçirilməsini tələb edir.

Tədqiqatlar göstərir ki, kredit ehtiyatlarının formalaşmasında, idarəetmə aparatının, qapalı müəssisələrin, elm, təhsil, səhiyyə və digər sahələrin maliyyələşdirilməsində, əhalinin sosial ehti-

yaclarının ödənilməsi və həyat səviyyəsinin yüksəldilməsində səmərəli iqtisadi siyasət dövlətin həyata keçirdiyi ən vacib və zəruri tədbirlərdən biridir. Bununla yanaşı, təcrübə göstərir ki, tətbiq olunan vergi sistemi yalnız o vaxt səmərə verir ki, o istehsalçıların və digər vergi ödəyicilərinin maddi marağını təmin etmiş olsun. 1999-cu ilə kimi kənd təsərrüfatında tətbiq olunan çoxnövlü vergi sistemi və əməkhaqqından sosial fondlara ayırmalar, habelə mövcud vergi qanunvericiliyindəki bəzi uyğunsuzluqlar aqrar bölmədə yeni təşəkkül tapmaqda olan təsərrüfat subyektlərini nəinki maddi cəhətdən maraqlandırırdı, əksinə, bu təsərrüfat subyektləri tərəfindən məhsul istehsalında maliyyə çətinliklərinin yaranmasına səbəb olurdu.

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün 1999-cu ildən etibarən, kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilmişlər.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 oktyabr tarixli 468 nömrəli Sərəncamı ilə “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti yaradıldıqdan sonra ölkənin bölgələrində onun 10 satış xidmət bazası və 57 rayonda texniki xidmət servisləri fəaliyyət göstərir. “Aqrolizinq” ASC tərəfindən respublikaya gətirilən kombaynların, traktorların, ekskavatorların və digər kənd təsərrüfatı texnikalarının yerləşdirilməsini, komplektləşdirilməsini, satışqabağı hazırlığının aparılmasını və satışını həyata keçirmişdir. 2008-ci ildən Şəki və Sabirabad logistik gübrə bazaları, 2009-cu ildən Şəmkir və Xaçmaz logistik gübrə bazaları, 2010-cu ildə isə Cəlilabadda və Bərdədə logistik gübrə bazaları yaradılıb. Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş qaydalara əsasən “Aqrolizinq” dövlət büdcəsi hesabına alınmış texnika və avadanlıqları fiziki və hüquqi şəxslərə dəyərinin 20 faizini qabaqcadan, qalan 40 faizini isə 10 il müddətinə qədər (dəyərindən asılı olaraq) ödəmək şərti ilə lizinqə verir. Cəmiyyət həmçinin gübrələri, damazlıq mal-qaranı, məhsuldar toxum sortlarını da alaraq fermerlərə güzəştli şərtlərlə satışını təşkil etmişdir.

Kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı sahəsində sahibkarlıq fəaliyyətini genişləndirmək məqsədilə dövlətin maliyyə dəstəyi genişlənməkdə davam edir. Belə ki, 2008-2019-cu illər ərzində 16 mindən çox sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 829 milyon manat güzəştli kredit verilmişdir ki, bunun da 591 milyon manatı kənd təsərrüfatı məhsullarının istehsalı ilə, 238 milyon manatı isə kənd təsərrüfatı məhsullarının emalı ilə bağlı layihələrə ayrılmışdır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının müasir kənd təsərrüfatı texnikaları ilə təminatının gücləndirilməsi məqsədləri üçün Cəmiyyətə ayrılmış 71,86 mln. manat büdcə və 92,59 mln manat Cəmiyyətin təkrar istifadə vəsaitləri hesabına 2016-cı ildə 164,45 mln manat dəyərində 4349 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınmışdır.

2019-cu ilin doqquz ayı ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə ümumilikdə investisiya layihələrinin maliyyələşdirilməsinə 109.4 milyon manat güzəştli kredit verilmişdir. Həmin vəsaitin 108,3 milyon manatı kənd təsərrüfatı məhsullarının istehsalı, 1,1 milyon manatı isə kənd təsərrüfatı məhsullarının emalı sahələrindəki layihələrə ayrılmışdır.

Kənd təsərrüfatı məhsulları istehsalı təbii amillərlə daha çox əlaqədardır. Belə ki, respublikanın bu və ya digər bölgəsində ayrı-ayrı illərdə kənd təsərrüfatı üçün qeyri-əlverişli hava şəraiti yaranır, bəzi hallarda isə təbii fəlakətlər baş verir. Belə vəziyyət kənd təsərrüfatı məhsulları həcminin azalmasına və ya bütövlükdə itirilməsinə, heyvanların qırılmasına, məhsul satışından vəsaitin azalmasına, təsərrüfatın maliyyə vəziyyətinin pisləşməsinə, bunlar isə öz növbəsində istehsalın gələcək inkişafına, nəzərdə tutulmuş tədbirlərin, xüsusilə kapital qoyuluşunun həyata keçirilməsinə öz mənfi təsirini göstərir. Təbiətin dağıdıcı fəaliyyətindən və digər gözlənilməz hadisələrdən yaranan itkiləri ödəmək üçün xalis gəlirin müəyyən hissəsini ehtiyat (sığorta) fonduna ayırmağı məqsədəuyğun hesab edirik. Kəndli təsərrüfatları üçün ehtiyat (sığorta) fondları aşağıdakı formalarda yaradıla bilər:

- özünüsığorta – burada təsərrüfat fəaliyyətini gəlirlə başa vuran təsərrüfatlar əldə etdikləri mənfəətdən ehtiyat fondu yarada bilər. Bu halda kəndli təsərrüfatı baş verə biləcək zərərin heç olmazsa müəyyən bir hissəsini ehtiyat fondunda olan vəsaiti hesabına ödəyə bilər;

- mənfəətdən ehtiyat fonduna ayrılan məbləğin ən azı əsas fondların faktiki amortizasiya ayırmaları səviyyəsində olmasını məqsədəmüvafiq hesab edirik;
- kəndli təsərrüfatlarını birləşdirən kooperativlər, birliklər, assosiasiyalar və s. bu məqsəd üçün xüsusi fond yarada bilərlər. Bu halda fondun yaranma mənbəyi təsərrüfatların amortizasiya ayırmaları və mənfəətlərindən ayırmaları ola bilər;
- əmlakın sığortası.

Göstərilən hər üç istiqamət kiçik və orta biznes təsərrüfatlarının gözlənilməyən itkilərinin bərpası üçün etibarlı mənbə ola bilər. Bütün bunlarla bərabər hesab edirik ki, kənd təsərrüfatı istehsalçılarının təbii amillərlə əlaqədar itkilərinin kompensasiyası üçün dövlət xüsusi sığorta fondu yaratmalıdır.

Fondun vəsaiti əsasən büdcədən məqsədli ayırmalar, kənd təsərrüfatından yığılan vergilər hesabına formalaşa bilər.

Kənd təsərrüfatında xərclərin daim qabaqlayıcı artımı, əlverişli bazar infrastrukturlarının olmaması, istehlakçıların aşağı ödəniş qabiliyyətli tələbi, əlaqədar sahələrdə inhisarçılıq və s. amillər kəndli təsərrüfatlarını dövriyyə vəsaitinin çatışmamazlığı kimi çətin bir vəziyyətə salmışdır. Məhsul satışı ilə əlaqədar çətinliklər, dönərsiz büdcə maliyyələşdirilməsinin olmaması və s. kənardan əlavə vəsait cəlb edilməsinə tələbatı daha da artırmışdır. Bütün bunlar rəqabət və bazar qanunlarına müvafiq maliyyə-kredit siyasəti yürüdülməsini tələb edir.

Kənd təsərrüfatının yüksək inkişafına nail olmuş xarici dövlətlərdə aqrar bölmə müntəzəm surətdə müxtəlif kompensasiya və yardımdan istifadə edir. Almaniya Federativ Respublikasında dövlət orqanları ayrı-ayrı sahibkarlara və kəndli kooperativlərinə keyfiyyətli heyvandarlıq məhsulları istehsalı üçün iri müəssisələr yaradılmasına köməklik edir. Burada tikinti güzəştli əsaslarla aparılır. İxtisaslaşmış müəssisənin sahibinə dövlət işçi qüvvəsi dəyərinin 80 faizini, texnika və avadanlığın dəyərinin yarısını əvəzsiz verir və beləliklə tikinti dəyərinin üçdə iki hissəsini öz üzərinə götürür. Müəssisənin fəaliyyətinin birinci ilində dövlət onun sahibinə qaytarmamaq şərtilə istehsal xərclərinin 60 faizini, ikinci il 40 faizini, üçüncü il isə 20 faizini ödəyir. Yalnız dördüncü ildən etibarən müəssisənin fəaliyyəti xüsusi vəsait hesabına həyata keçirilir.

Fikrimizcə, biz inkişaf etmiş dövlətlərin aqrar bölməyə köməklik göstərməsi sahəsindəki təcrübədən yan keçməməliyik, əksinə, təcrübəni öyrənib respublikanın aqrar bölməsində tətbiq etməklə kənd təsərrüfatının dinamik inkişafına nail ola bilərik.

Kəndli təsərrüfatlarının inkişafının maliyyə-kredit mexanizminin araşdırılması nəticəsində belə bir qənaətə gəlirik ki, ölkədə aqrar bölmənin mövcud maliyyə vəziyyətində çatışmamazlıqlar var və aqrar-sənaye kompleksində, o cümlədən kənd təsərrüfatında gözlənilən nəticələrin əldə edilməsi üçün aqrar iqtisadiyyata dövlətin müdaxiləsi, dövlət dotasiyası və yardımı, güzəştli vergi və kredit sisteminin tətbiqini daha da artırmaq tələb olunur. Ölkənin kənd təsərrüfatına xarici və daxili investorların yüksək həcmdə investisiya qoyacaqlarının qeyri-real olduğunu nəzərə alaraq xarici və daxili investorların səylərini ilk növbədə yüngül və yeyinti sənayesinin inkişfına yönəldilməsini məqsədəmüvafiq hesab edirik. Belə ki, yüngül və emal sənayesinin yenidən qurulması, yeni istehsal güclərinin istismara verilməsi bu müəssisələrin xammala olan ehtiyacının xeyli artmasına səbəb olacaq. Bu halda müəssisələrin xammala olan tələbatının ödənilməsi üçün ayrı-ayrı sahibkarlar kənd təsərrüfatının bu və ya digər sahələrinə investisiya qoyulmasında daha maraqlı olacaqlar.

**Aqrar sahədə kiçik və orta biznes strukturlarının səmərəli fəaliyyətində kreditin rolu**

Aqrar bölmənin kredit ehtiyaclarının ödənilməsində mövcud bank sistemi ilə yanaşı kəndli təsərrüfatlarının kredit kooperativlərinin yaradılması da böyük rol oynaya bilər. Kredit kooperasiyası fermer kooperativ hərəkatının ən qədim sahəsidir. Kredit kooperativləri fəaliyyət göstərdiyi yüz ildən artıq bir dövr ərzində bir çox ölkələrdə maliyyə-kredit sistemində nüfuzedici sahəyə çevrilmiş, iri mərkəzi banklar da daxil olmaqla özünün ərazi və yerli xarakterli şöbələri və kassaları formasında hesablaşma, kredit-əmanət təşkilatlarının geniş şəbəkəsini yaratmağa müvəffəq olmuşdur. Hesab edirik ki, respublikanın iqtisadi bölgələrində kredit kooperativləri yaratmaqla kəndli

təsərrüfatlarının mövcud maliyyə vəziyyətinin sağlamlaşdırılmasına xeyli köməklik göstərilə bilər.

Bütün bunlarla yanaşı, kəndli təsərrüfatları özlərinin xalis gəlirlərindən hər il məqsədli ayırmalar etməklə, müxtəlif ehtiyat fondları yaratmaqla öz maliyyə ehtiyaclarının müəyyən hissəsini ödəyə bilərlər və istifadəsiz qalmış vəsaiti az imkanlı təsərrüfatlara aşağı faizlə kredit verməklə onları vəziyyətdən çıxarmaqla bərabər özlərinin pul gəlirlərini artıra bilərlər. Belə hesab edirik ki, bazar iqtisadiyyatının indiki mərhələsində aqrar bölmədə yeni istehsal münasibətlərinə müvafiq təsərrüfat subyektlərinin yaradılması və onların səmərəli təsərrüfat fəaliyyətinin təmin olunması üçün dövlətin müstəqil maliyyələşdirmə tədbirləri, çevik kredit mexanizmi olmalıdır. Çünki, yeni təsərrüfat subyektlərinin fəaliyyətini özbaşına buraxmaq, bunların öz imkanları ilə bazarda tələblə təklifin nizamlanacağına və dövlətin müdaxiləsi olmadan aqrar bölmədə iqtisadi böhranın aradan qaldırılacağına ümid olmaq yaxşı nəticələr verə bilməz.

Buna görə də aqrar bölmədə yeni kiçik və orta biznes təsərrüfatçılıq strukturlarının tezliklə formalaşdırılması və onların bazarın qanunlarına müvafiq səmərəli fəaliyyətinin təmin olunması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəmüvafiq hesab edirik:

- kəndli təsərrüfatlarına investisiya məqsədləri üçün büdcədən subsidiyalar verilməsinə dair uzunmüddətli dövlət proqramları hazırlayıb həyata keçirmək;
- xalq təsərrüfatının digər sahələrinin təsərrüfat subyektlərinin gəlirlərindən dövlət tərəfindən müəyyən edilmiş ölçüdə məqsədli ayırmalardan kənd təsərrüfatına yardım üçün büdcədənkənar fondun yaradılması və həmin fond hesabına kəndli təsərrüfatlarına maliyyə yardımı göstərilməsi;
- kəndli təsərrüfatlarını kreditləşdirən banklar üçün güzəştli vergilərin müəyyən edilməsi;
- kəndli təsərrüfatlarının kreditləşdirilməsində iştirak edən bankların dövlət tərəfindən subsidiyalaşdırılması sisteminin tətbiqi;
- kəndli təsərrüfatları üçün bazar iqtisadiyyatının tələblərinə müvafiq sığorta mexanizminin tətbiqi və s.

Pul-kredit sferasının dövlət tənzimlənməsi o halda müsbət səmərə verir ki, dövlət Mərkəzi Bank vasitəsi ilə xüsusi sektorun fəaliyyətinə təsir göstərmək imkanına malik olsun. Onu da qeyd etmək lazımdır ki, bu prinsip inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində pul-kredit sisteminin əsasını təşkil edir. Bu tənzimləmə bir-biri ilə qarşılıqlı əlaqədə olan bir neçə istiqamətlərdə həyata keçirilir.

Kredit əməliyyatlarının və pul emissiyasının tənzimlənməsi məqsədi ilə hər şeydən əvvəl təsərrüfat fəallığına təsir və inflyasiyaya qarşı mübarizə vasitələrindən istifadə edilir. Bankın qiymətli kağızlarının tənzimlənməsi bank ssudalarının və depozitlərinin strukturuna, pul kütləsinin həcminə, faizlərin bazar normasının səviyyəsinə əsaslı təsir göstərir. Dövlət borclarının tənzimlənməsi də eyni zamanda dövlət və xüsusi sektor arasında ssuda kapitalının bölgüsünə, faiz dərəcələrinin səviyyəsinə, bank balanslarının və qiymətli kağızların strukturuna nəzərəçarpacaq dərəcədə təsir göstərir.

İqtisadi ədəbiyyatdan və beynəlxalq təcrübədən pul-kredit siyasətinin metodları iki qrupa bölünür: ümumi (bütövlükdə ssuda kapitalı bazarına təsiri) və seçmə (konkret kredit növünün tənzimlənməsi və ayrı-ayrı sahələrin kreditləşdirilməsi).

Kredit əməliyyatlarının və pul emissiyasının tənzimlənməsi məqsədi ilə hər şeydən əvvəl təsərrüfat vahidlərinin fəaliyyətinə təsir və inflyasiyaya qarşı mübarizə vasitələrindən istifadə edilir. Bankın qiymətli kağızlarının tənzimlənməsi bank ssudalarının və depozitlərinin strukturuna, pul kütləsinin həcminə, faizlərin bazar normasının səviyyəsinə əsaslı təsir göstərir. Dövlət borclarının tənzimlənməsi də eyni zamanda dövlət və xüsusi sektor arasında ssuda kapitalının bölgüsünə, faiz dərəcələrinin səviyyəsinə, bank balanslarının və qiymətli kağızların strukturuna nəzərəçarpacaq dərəcədə təsir göstərir.

Pul-kredit siyasətinin ümumi metodlarına açıq bazar əməliyyatları və məcburi ehtiyatlar normasının müəyyən edilməsi daxildir. Məlumat üçün onu da qeyd edək ki, açıq bazar əməliyyatından və uçot siyasətindən fərqli olaraq pul-kredit tənzimlənməsinin məcburi ehtiyatlar normasının müəyyən edilməsi mexanizmi bank sisteminin əsaslarına toxunmaqla bütövlükdə ölkənin maliyyə-təsərrüfat sisteminə daha güclü təsir etmək iqtidarına malikdir.

İqtisadiyyatın durumu əhəmiyyətli dərəcədə pul-kredit sferasının vəziyyətindən asılıdır. İnstitutların sayına, kredit resursları və əməliyyatlarının həcminə görə bütün pul-kredit sisteminin bazasını kommesiya bankları və digər kredit təşkilatları təşkil edir. Pul-kredit tənzimlənməsi – dövlətin iqtisadi siyasətinin tərkib hissəsidir. Pul-kredit tənzimlənməsi dövriyyədə pul kütləsinin, kredit həcminin, faiz dərəcələrinin və pul dövranı və kreditin digər göstəricilərinin dəyişməsinə yönəlmiş tədbirlər toplumudur.

### *Nəticə*

Maliyyə, kredit, vergi, qiymət və s. kimi iqtisadi mexanizmlərin təkmilləşdirilməsi, iqtisadiyyatın idarə edilməsi və bunların bazar münasibətlərinin tələblərinə uyğunlaşdırılması əsas vəzifələrdən biri kimi qarşıda durur.

Kredit ehtiyaclarının ödənilməsində mövcud bank sistemi ilə yanaşı kəndli təsərrüfatlarının kredit kooperativlərinin yaradılması da böyük rol oynaya bilər.

Aqrar bölmədə yeni kiçik və orta biznes təsərrüfatçılıq strukturlarının tezliklə formalaşdırılması və onların bazarın qanunlarına müvafiq səmərəli fəaliyyətinin təmin olunması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəmüvafiq hesab edirik:

- kəndli təsərürfatlarına investisiya məqsədləri üçün büdcədən subsidiyalar verilməsinə dair uzunmüddətli dövlət proqramları hazırlayıb həyata keçirmək;
- kəndli təsərrüfatlarını kreditləşdirən banklar üçün güzəştli vergilərin müəyyən edilməsi;
- kəndli təsərrüfatlarının kreditləşdirilməsində iştirak edən bankların dövlət tərəfindən subsidiyalaşdırılması sisteminin tətbiqi;
- kəndli təsərrüfatları üçün bazar iqtisadiyyatının tələblərinə müvafiq sığorta mexanizminin tətbiqi və s.

Kəndli təsərrüfatları üçün ehtiyat (sığorta) fondlarının yaradılması vacibdir ki, bu da aşağıdakı formalarda yaradıla bilər:

- özünüsığorta – burada təsərrüfat fəaliyyətini gəlirlə başa vuran təsərrüfatlar əldə etdikləri mənfəətdən ehtiyat fondu yarada bilər. Bu halda kəndli təsərrüfatı baş verə biləcək zərərin heç olmazsa müəyyən bir hissəsini ehtiyat fondunda olan vəsaiti hesabına ödəyə bilər;

- mənfəətdən ehtiyat fonduna ayrılan məbləğin ən azı əsas fondların faktiki amortizasiya ayırmaları səviyyəsində olmasını məqsədəmüvafiq hesab edirik;

- kəndli təsərrüfatlarını birləşdirən kooperativlər, birliklər, assosiasiyalar və s. bu məqsəd üçün xüsusi fond yarada bilərlər. Bu halda fondun yaranma mənbəyi təsərrüfatların amortizasiya ayırmaları və mənfəətlərindən ayırmaları ola bilər;

- əmlakın sığortası.

Göstərilən hər üç istiqamət kiçik və orta biznes təsərrüfatlarının gözlənilməyən itkilərinin bərpası üçün etibarlı mənbə ola bilər. Bütün bunlarla bərabər hesab edirik ki, kənd təsərrüfatı istehsalçılarının təbii amillərlə əlaqədar itkilərinin kompensasiyası üçün dövlət xüsusi sığorta fondu yaratmalıdır.

Hesab edirik ki, bu tədbirlərin həyata keçirilməsi aqrar sahədə kiçik və orta biznesin inkişafında mühüm rol oynayar.

## ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 177 s.
2. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair” Dövlət Proqramının icrasının I ilinin yekunlarına həsr olunan konfransda yekun nitq. 27 yanvar 2015-ci il. http://www.president.az/
3. Quliyev E.A. Qlobal ərzaq təhlükəsizliyi:reallıqlar, çağırışlar və perspektivlər. Bakı, AKU nəşriyyatı, 2018, 480 s.

4. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri. Monoqrafiya. Bakı, AKU nəşriyyatı, 2017, 536 s.
5. Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı-2012, 423 s.
6. Alıyev İ.H., Ş.Ə.Məmmədova. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri. Bakı, 2007. 227 s.
7. Qafarov N.C. Aqrar istehlak bazarının iqtisadi mexanizminin formalaşması və inkişafının elmi-nəzəri əsasları.Kənd Təssərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutu. Elmi Əsərləri. №-2. 2018.
8. Qafarov N.C. Aqrar sahədə kiçik və orta biznesin iqtisadi səmərəliliyi. Monoqrafiya. Bakı, 2008.
9. А.И.Муравьев, А.М.Игнатьев, А.Б.Крутик, Малый бизнес. Санкт-Петербург 1999. 608 с.

***доц. Низами Джалал оглы Гафаров,***
***Мирван Вугар оглы Мамедов***

**Направления совершенствования кредитного механизма малого и среднего бизнеса в аграрном секторе**

***Резюме***

**Цель исследования** - изучить роль кредитного механизма и его теоретические основы в развитии малого и среднего бизнеса в аграрном секторе, определить текущее состояние кредитного механизма и тенденции развития.

**Методология исследования** - в работе использованы сравнительный анализ, логическое обобщение, системный подход и методы анализа.

**Значимость приложения исследования** - одна из основных задач заключается в совершенствовании экономических механизмов, связанных с регулированием экономических отношений в малом и среднем бизнесе в аграрном секторе, управлением экономикой и их адаптацией к требованиям рынка.

**Результаты исследования** - льготные налоги для банков, кредитующих фермерские хозяйства, определение состояния банков, занимающихся кредитованием фермерских хозяйств. Даны рекомендации по применению системы субсидий, применению механизма страхования в соответствии с требованиями рыночной экономики для сельского хозяйства, созданию резервных (страховых) фондов для сельского хозяйства, созданию кредитных кооперативов в экономических регионах и совершенствованию текущее финансовое положение сельского хозяйства.

**Оригинальность и научная новизна исследования** - направления совершенствования кредитного механизма с целью обеспечения эффективной работы субъектов малого и среднего бизнеса, работающих в сельском хозяйстве.

***Ключевые слова: аграрный сектор, малый и средний бизнес, производство, экономический механизм, финансы, кредит, банковское дело, рыночные отношения, товарно-денежные отношения.***

***Nizami Jalal Qafarov***
***ass. prof. ACU***

***Mirvan Vugar Mamadov***

**Improvement directions of the gredit mechanism of small and medium business in the agrarian area**

***Summary***

The purpose of the study is to study the role of the credit mechanism and its theoretical basis in the development of small and medium-sized businesses in the agricultural sector, to determine the current state of the credit mechanism and development trends.

**Research methodology** - comparative analysis, logical generalization, systematic approach and analysis methods were used in the research work.

**Significance of the application of the research** - one of the main tasks is to improve the economic mechanisms related to the regulation of economic relations in the field of small and medium business in the agricultural sector, management of the economy and their adaptation to market requirements.

**The results of the study** - preferential taxes for banks lending to farms determination of the state of the banks involved in lending to farms recommendations on the application of the subsidy system, the application of an insurance mechanism in accordance with the requirements of a market economy for agriculture, the establishment of reserve (insurance) funds for agriculture, the establishment of credit cooperatives in economic regions and improving the current financial situation of agriculture.

**The originality and scientific novelty of the research** - the directions of improving the credit mechanism in order to ensure the effective operation of small and medium-sized businesses operating in agriculture.

***Key words: agrarian sector, small and medium business, production, economic mechanism, finance, credit, banking, market relations, commodity-money relations.***